Jl. Mas Putih Blok D Persil 29
Grogol Utara Kebayoran Lama
Jakarta Selatan 12210
Tel. : 549 19 39
Fax : 549 17 45
E-mail: azerbembjkt@u.net.id

Azərbaycan Respublikasının Səfirliyi
Cakarta

# Press-reliz

Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dəvəti ilə 1-3 may 2007-ci il tarixlərində Azərbaycanda rəsmi səfərdədir.

2 may 2007-ci ildə Prezidentlər siyasi, iqtisadi və humanitar sahələrdə əməkdaşlığın genişləndirilməsini müzakirə etmişlər.

Belarus Prezidenti Baş Nazir Artur Rasi-zadə ilə görüşmüş, Şəhidlər Xiyabanını, Azərbaycanın Ümummilli Lideri Heydər Əliyevin məzarını ziyarət etmiş, Heydər Əliyev adına Fondda olmuş və Belarus Milli Sərgisinin açılışında iştirak etmişdir.

Prezidentlər Dostluq və Əməkdaşlıq haqqında Müqavilə imzalamışlar.

İki ölkə arasında aşağıdakı sazişlər imzalanmışdır:
Azərbaycan və Belarus Milli Elmlər Akademiyaları arasında əməkdaşlıq proqramı, iki ölkə Milli Bankları arasında əməkdaşlıq haqqında saziş, Azərbaycanın Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi və Belarus Respublikasının Maliyyə Nazirliyi arasında əməkdaşlıq haqqında saziş, Standartlaşdırma və meteorologiya sahəsində əməkdaşlıq haqqında saziş, Baytarlıq sahəsində əməkdaşlıq haqqında Hökumətlərarası saziş, Bitki karantini və mühafizəsi sahəsində əməkdaşlıq haqqında Hökumətlərarası saziş, Məxfi məlumatların qarşılıqlı qorunması haqqında Hökumətlərarası saziş, iki ölkə ərazisində müvəqqəti işləyən vətəndaşların əmək fəaliyyəti və sosial müdafiəsi haqqında saziş.

3 may 2007-ci il